*Şahrza AĞAYEV - 70*

# HƏYAT VƏ YARADICILIQ YOLLARINDA



Çox hörmətli Şahrza müəllim!

Sizi yubleyiniz münasibətilə səmimi qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm. Yaşınızın bu tarixi gününü zəngin həyat təcrübənizin çiçəkləndiyi gündə qarşılayırsınız.

Məni sevindirən əsas cəhət sizin qəlbinizin bu gün də yaşamaq və yaratmaq istəyi ilə dolu olmasıdır.

Müəllifi olduğunuz çoxsaylı kitablar, elmi və publisistik məqalələr yaradıcılığınızın uğurudur. Sizin bu uğurlarınıza oxucularınızın böyük ehtiyacı var. Bir çox kitab və məqalələriniz birgə yaradıcılığımızın nəticəsi olduğundan ümidvar oluram ki, sizinlə hələ yaradıcılıq əməkdaşlığının astanasındayıq.

Şahrza müəllim, siz institutu bitirdikdən sonra kəndinizdə pedaqoji fəaliyyətə başlamağınıza baxmayaraq, ilk gündən pedaqoji əməyin nəzəri və praktiki xüsusiyyətlərini öyrənməyə səy göstərir və bu sahədə axtarışlar aparır, gəldiyiniz elmi nəticələr respublika mətbuatında müntəzəm nəşr olunubdur. Sizin elmi axtarışlarınız respublikanın tanınmış pedaqoqlarının diqqətini çəkir və sizin 1988-ci ildə Təhsil Problemləri İnstitutuna dəvət edirlər. Orada siz "Kənd məktəblərində şagirdlərin ictimai-faydalı və məhsuldar əməyinin təşkilinin səmərəli yolları" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişsiniz. Birgə müəllifi olduğumuz "Hadisələr və düşüncələr" satirik kitabımıza ön sözün müəllifi də Siz olmusunuz.

Yazdığınız hekayələrdə təsbit olunan həyat hadisələrindən düzgün nəticə çıxartmaqda bələdçi kimi faydalanmağın səmərəli yollarını oxuculara çatdırmağı məqsədəuyğun saydığınıza görə, oxucuda pedaqoji-psixoloji düşüncəni formalaşdırmaq, baş verənlərin mahiyyətinə düzgün münasibət göstərmək məqsədilə siz hər bir hekayə mətninin məzmununa uyğun olaraq düşündürücü tapşırıqlar-test nümunələri daxil etmisiniz. Bu da cəmiyyətin saflaşmasında hər bir fərdi şəxsin nümunəyə sahib olması, mədəniyyətimizə layiqli töhfələr verməsi deməkdir.

Hörmətli Şahrza müəllim, Sizin insanlara sevginiz bu gün də qarşılıqlıdır. Biliyinizi əsirgəməməkdə, müəllim səbri ilə öyrətməkdə çox səxavətlisiniz. Yaxşı bilirsiniz ki, şagirddən, tələbədən yaxşı bilik tələb etmək üçün onlara yaxşı bilik vermək lazımdır.

Çox hörmətli Şahrza müəllim! Siz o insanlardansınız ki, olduğunuz kimisiniz – yaradıcılığınız və şəxsiyyətiniz bir-birini tamamlayır.

Etiraf etməliyəm ki, kitab və məqalələrdə dünya, həyat, cəmiyyət, tarixi hadisələr haqqında yazdıqlarınız sizin düşüncələrinizdir. Onlar milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində cəfakeşlik etməyinizdir.

Bu yazılar ədəbi-bədii dəyərinə, sağlam estetik əsaslarına, təfəkkür dərinliyinə görə müəllifinə hörmət qazandıracaq əsərlərdir.

Hamıya məlumdur ki, istedad insana verilmiş Allah vergisidir. Ancaq istedadın çiçəklənməsi zəhmətdən asılıdır.

Hörmətli Şahrza müəllim!

Siz istedadlı və zəhmətkeş insansınız. Məhz o zəhmətin hesabına da istedadınızı hər yerdə üzə çıxara bilirsiniz. Siz uzun illər müəllimlik etdiniz. Bu müddət -ərzində istedad ilə zəhmətinizi birləşdirərək hamının sevimlisi oldunuz.

Əminəm ki, bundan sonra da zəhmətiniz hesabına böyük uğurlar qazanacaqsınız.

Bunu da qeyd etmək istərdim ki, bu gün bir alim və bir yazar kimi sizi tanıdan sizin istedadınız və yazılarınızdır.

Yubileyiniz mübarək olsun. Cansağlığı arzu edirəm ki, sağlam 100 il yaşayasız.

*Hörmətlə:*
*Şəddat* Cəfərov
***Respublikanın ilk poliqrafçı alimi, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

Kredo 2021.- 24 fevral.- S.11.